**Birləşmiş Ərəb Əmirliklərinin Əbu Dabi Gələcək Enerji Şirkəti (Masdar)**

**"Gələcəyin Dayanıqlılıq Liderləri 2024" adlı bir illik təlim proqramı elan edir**

**Ümumi məlumat**

Birləşmiş Ərəb Əmirliklərinin Əbu Dabi Gələcək Enerji Şirkəti (Masdar) "Gələcəyin Dayanıqlılıq Liderləri 2024" adlı bir illik təlim proqramı elan edir. Proqramın təşkil olunmasında əsas məqsəd tələbələrin və gənc mütəxəssislərin dayanıqlı inkişaf liderləri olmaları üçün onlara bilik və təlim kursları, elmi təcrübələr təqdim etməklə həmin şəxslərin davamlılıq gündəliyinə nail olmaqda fəal rol oynamağa şərait yaratmaqdır.

**Kvota:** 5 yer

**Son müraciət tarixi:** 19 noyabr 2023

**Müraciət edən namizədlər aşağıdakı tələblərə cavab verməlidir:**

- 19-35 yaş intervalı üzrə bakalavriat, magistratura və ya doktorantura tələbəsi olmaq;
- Əla səviyyədə ingilis dili bacarığına malik olmaq;
- Dayanıqlılıqla bağlı sahələrə marağını göstərən bəyanat təqdim etmək.

Müraciət etmək istəyən namizədlərin aşağıdakı sənədlərinin skan olunmuş nüsxəsini son tarixədək htpinfo@edu.gov.az e-poçt ünvanına göndərməyi tələb olunur:

1. Aktiv tələbə statusunu sübut edən sənəd (universitetdən arayış);
2. Şəxsiyyət vəsiqəsinin surəti;
3. Pasportun surəti;
4. İngilis dili biliyini sübut edən sənəd (sertifikat və ya da ingilis dilində təhsil alması barədə arayış);
5. Dayanıqlılıq sahəsinə marağını, bu sahədə indiyəcən gördüyü işləri göstərən motivasiya məktubu (300-500 söz).

Təlim proqramı hibrid formatda olacaq, əcnəbi iştirakçılar əsasən onlayn tədbirlərdə iştirak edəcək. Şəxsən iştirak tələb olunan tədbirlər üçün (Əbu Dabi Dayanıqlılıq Həftəsi və s.) bütün xərclər (səyahət, yaşayış, nəqliyyat xərcləri və viza rüsumları) Gələcək Enerji Şirkəti (Masdar) tərəfindən ödənilir.

Daha çox məlumat üçün keçid edə bilərsiniz: Y4